YENİ TƏFƏKKÜR Yüksəlişə doğru yol!

# Dövlət başçısı İlham Əliyevin ən yaxın silahdaşı

***Lənkəran Şəhər İcra Hakimiyyəti və Yeni Azərbaycan Partiyasının Lənkəran rayon təşkilatının birgə təşkilatçılığı sayəsində keçirilən "Mehriban xanım Əliyeva Prezident İlham Əliyevin ən yaxın silahdaşıdır" adlı konfransda rayon idarə, müəssisə rəhbərləri, YAP fəalları, gənclər, Ərazi Partiya Təşkilatı sədrləri, müharibə veteranları və şəhid ailələri iştirak ediblər.***



Əvvəlcə müstəqil Azərbaycanın yaradıcısı, Türk dünyasının dahi oğlu ulu öndər Heydər Əliyevin və Vətən torpaqlarının azadlığı uğrunda canından keçmiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla anılıb. Dövlət Himninin sədaları altında başlanan tədbirdə Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov giriş nitqi söyləyib. O, Ali Baş Komandan İlham Əliyevin 44 günlük haqq savaşımızda qazanılan tarixi Zəfərin memarı olduğunu iştirakçıların diqqətinə çatdırıb, dövlətin işğaldan azad olunmuş torpaqlarda Böyük Qayıdış layihəsindən və layihənin uğurla həyata keçirilməsində Birinci vitse-prezident Mehriban xanım Əliyevanın misilsiz rola malik olduğunu söyləyib, onun respublikamızın inkişafına xidmət göstərən bütün layihələrdə ölkə başçısına tam dəstək verdiyini vurğulayıb.

Natiq xüsusi olaraq onu da bildirib ki, M.Əliyevanın elm, təhsil, mədəniyyət, idman və digər sosial sahələrin inkişafına yönəlmiş yorulmaz fəaliyyətinə, ölkədə aparılan abadlıq-quruculuq prosesində yaxından, fəal şəkildə iştirakına cəmiyyət tərəfindən yüksək qiymət verilir.

Sonra Yeni Azərbaycan Partiyası Lənkəran rayon təşkilatının sədri İqbal Əmənullayev mövzu ilə bağlı geniş məruzəsində deyib:

- Mehriban xanımın çoxşaxəli fəaliyyəti əsasən üç istiqamətə bölünür. Vətəninə, xalqına bağlı bu işgüzar xanım həm Heydər Əliyev Fondunun prezidenti, həm Azərbaycanın Birinci vitse-prezidenti, həm də Yeni Azərbaycan Partiyası sədrinin birinci müavini kimi dövlətimizi nəinki ölkə daxilində, hətta ondan kənarda da ləyaqətlə, şərəflə, adına layiq təmsil edir. Eyni zamanda Mehriban Əliyeva Azərbaycanın inkişafı uğrunda cənab Prezidentlə birlikdə çiyin-çiyinə mübarizə aparır, görülən bütün işlərdə İlham Əliyevə ən yaxın silahdaş, ən inanılmış siyasi sirdaş, ən yaxın yardımçı olaraq möhkəm dayaq olur.

Digər çıxışçılar - Lənkəran Rayon Mərkəzi Xəstəxanasının direktoru Nuridə Məmmədova Mehriban xanım Əliyevanın səhiyyə sahəsində gördüyü işlərdən, Lənkəran şəhər 2 saylı tam orta məktəbin direktoru Gülnarə Seyfullayeva təhsil sahəsinə yönəlmiş fəaliyyətindən, Lənkəran Dövlət Dram Teatrının aktrisası Aynur Əhmədova isə Mehriban Əliyevanın mədəniyyət sahəsində həyata keçirdiyi möhtəşəm layihələrdən söhbət açıblar.

Taleh Qaraşovun yekun nitqi ilə konfrans başa çatıb.

**Zəfər Orucoğlu,**
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü**